# İNKLÜZİV TƏHSİLDƏ DÖVLƏT TƏHSİL SİYASƏTİNİN STRATEJİ MƏZMUNU

**AYGÜN MUSAYEVA**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)*

aygun.musayeva-88@mail.ru

***Açar sözlər:*** *inklüziv təhsil, təhsil strategiyası, təhsil siyasəti, xüsusi uşaqlar*

Xüsusi qayğıya ehtiyacı olan uşaqların ayrıca xüsusi təhsil alması vacib deyildir. Əksinə, onların daha keyfiyyətli təhsilə yiyələnmələri və cəmiyyətə daha tez adaptasiya olmaları üçün öz tipik həmyaşıdları ilə, ümumtəhsil orta məktəblərdə dərs almaları məqsədəuyğundur. Hər şeydən əvvəl bu, artıq mövcud formalaşmış korreksiyaedici sistemdə, "xüsusi" uşağın cəmiyyətə adaptasiyası prosesinin zəif inkişaf etməsi və onun ictimaiyyətdən kənarda qalaraq təcrid olunması ilə əlaqədardır. Azərbaycanda Təhsil Siyasətinin məqsədi bütün vətəndaşlar üçün keyfiyyətli təhsilin təmin edilməsindən ibarətdir və təhsil sisteminin islahatlaşdırılması prosesində əsas diqqət milli azlıqları, qaçqınları və məcburi köçkünləri təmsil edən uşaqların, həmçinin xüsusi qayğıya ehtiyacı olan uşaqların keyfiyyətli təhsil alması üçün bərabər imkanların yaradılmasına yönəldilir.

2006-cı il dekabrın 13-də Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən qəbul edilmiş "Əlillərin hüquqları haqqında" Konvensiya əlilliyi olan şəxslərin təhsil hüquqlarının bir çox tərəflərini əhatə edir və inklüziv təhsilin hər kəs üçün ən yaxşı təhsil mühiti olduğuna təşviq edir. Heydər Əliyev Fondu tərəfindən sağlamlıq imkanları məhdud, kimsəsiz, valideyn himayəsindən məhrum olan, cəmiyyətin diqqətindən kənarda qalan uşaqların təhsilinin təşkili, onların təhsil aldığı müəssisələrin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü işlər görülmüş, sağlamlıq imkanları məhdud uşaqlar üçün internat məktəbləri və xüsusi məktəblər əsaslı təmir edilmiş və ya yenidən





qurulmuş, həmin müəssisələr müasir tələblərə cavab verən inventar və avadanlıqlarla təchiz edilmişdir. Sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla birgə təhsilə (inklüziv təhsilə) cəlb olunması üçün "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın (bundan sonra – Dövlət Proqramı) həyata keçirilməsi zəruridir. Dövlət Proqramının məqsədi sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan ibarətdir.

Dövlət Proqramının əsas vəzifələri aşağıdakılardır: sağlamlıq imkanları məhdud şəxslərin təhsilin bütün pillələri üzrə inklüziv təhsil hüququnu təmin etmək məqsədi ilə normativ hüquqi aktların təkmilləşdirilməsi; təhsil müəssisələrinin və tədris proqramlarının sağlamlıq imkanları məhdud şəxslərin ehtiyaclarına uyğunlaşdırılması üçün tədbirlərin görülməsi; sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin təşkili ilə bağlı pedaqoji kadrların hazırlanması və ya əlavə təhsilə cəlb olunması; inklüziv (inteqrativ) təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud şəxslər üzrə məlumat bazasının yaradılması; sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması və sosial inteqrasiyasının vacibliyi barədə aidiyyəti dövlət qurumları ilə birlikdə təbliğat və ictimai maarifləndirmə işinin aparılması.

Ümumtəhsil sistemi bütün uşaqları əhatə etməli, bütün uşaqların bərabər imkanlara malik olmasını təmin etməli və hər birinin fərdi nailiyyətlərinə dəstək verməlidir. Təhsildə inklüziv yanaşma bu məqsədlərə xidmət edir: Xüsusi qayğıya ehtiyacı olan uşaqlara cəmiyyətə daxil olmaq və onları əhatə edən mühitlə ünsiyyət yaratmaq imkanı vermək, uşağın həyat və bəşəriyyət haqqında biliklərə yiyələnməsi üçün şərait yaratmaq. Məlumdur ki, sağlamlığının nə qədər ciddi olmasından asılı olmayaraq hər bir uşaq öyrənməyə qadirdir.

## Ədəbiyyat

1. Zamanov A.D, Əliyeva H.İ. Sosial işin əsasları. Dərslik. 452 s., Bakı-2015.
2. Əlizadə H., Mahmudova R. Sosial pedaqogika. Dərslik. Bakı- 2013.
3. İsmayılova L. və başqaları. Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili. Bakı, Kurrikulum., 2009, № 3
4. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2009.
5. Təhsil Qanunvericiliyinə dair normativ Hüquqi sənədlər toplusu. I-II cild. Bakı: 2012